**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA RƏQƏMSAL NƏQLİYYAT XİDMƏTİNİN İNKİŞAFININ TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMLƏRİ

İxtisas: 5312.01 – “Sahə iqtisadiyyatı”

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **İlknur Rahib oğlu Rəcəbli**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Biznes Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Rahim Fərahim oğlu Sadıqov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Rəsul Ənvər oğlu Balayev**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Tahir Şükür oğlu Şükürov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru
**Mansur Akif oğlu Mədətov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________ AMEA-nın həqiqi üzvi, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ______________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ______________ Əməkdar kənd təsərrüfatı işçisi, iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycanın strateji coğrafi mövqeyi nəqliyyat sektorunun inkişafında mühim rol oynayır. Ölkənin beynəlxalq nəqliyyat dəhlizlərində yerləşməsi və bu dəhlizlərdəki rolu rəqəmsallaşma ilə birləşdirilərək həm regionda, həm də dünya səviyyəsində mövqeyini gücləndirə bilər. Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə nəqliyyat və logistika sistemlərinin inkişaf etdirilməsi strateji hədəf kimi müəyyən edilmişdir. Bu hədəflər rəqəmsallaşmanın nəqliyyat xidmətlərində tətbiqi ilə birbaşa əlaqədar olaraq sahənin müasirləşdirilməsi üçün elmi və praktik araşdırmaların aparılmasını zəruri edir.

Azərbaycan Respublikasında nəqliyyat xidmətlərinin rəqəmsallaşdırılması müasir dövrdə ölkənin sosial-iqtisadi inkişafının əsas tələblərindən biridir. Dünyada baş verən sürətli texnoloji dəyişikliklər, rəqəmsallaşmanın həyatın bütün sahələrinə nüfuz etməsi və iqtisadiyyatın müxtəlif seqmentlərində rəqabət qabiliyyətinin artırılması zərurəti bu mövzunu aktuallaşdırır. Rəqəmsal texnologiyaların nəqliyyat xidmətlərinə inteqrasiyası idarəetmə proseslərinin avtomatlaşdırılması, xidmət keyfiyyətinin yüksəldilməsi, müştəri məmnuniyyətinin artırılması və əməliyyat xərclərinin azaldılması üçün əsas vasitədir.

Rəqəmsallaşma nəqliyyat sektorunda avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqini, rəqəmsal marketinqin inkişafını, biznes modellərinin yenilənməsini təmin edir. Bu yanaşma nəticəsində həm sərnişin, həm də yük daşımaları sahəsində səmərəlilik artır, proseslər daha şəffaf və izlənilə bilən olur. Rəqəmsallaşma həmçinin, yerli nəqliyyat şirkətlərinin beynəlxalq səviyyədə rəqabətə davamlı olmasını dəstəkləyir və ölkənin nəqliyyat sektorunun beynəlxalq imicini gücləndirir.

Azərbaycanın nəqliyyat xidmətinin inkişafı üçün böyük potensialı, kifayət qədər inkişaf etmiş sosial infrastruktura malik olan coğrafi mövqeyi vardır. Ölkə başçısı İlham Əliyev 7 yanvar 2025-ci il tarixində yerli televiziya kanallarına müsahibəsində qeyd etdi ki, Azərbaycanın nəqliyyat sektorunun sürətlə inkişafı davam edir, bu

inkişafın dayanıqlı olması üçün rəqəmsal texnologiyalardan bacarıqla istifadə etməklə nəqliyyat xidməti müasir dövrün tələblərinə cavab verəcəkdir. Bunun üçün nəqliyyat sahəsi ilə bağlı əlaqəli sahələrin, xüsusən gömrük sənədləşdirmələrində yük daşımaları ilə bağlı yükgöndərən tərəflərin daşınan yükləri müntəzəm izləmək, daşıma prosesinə qarşı çıxan lüzumsuz çətinliklər, təbii və süni yubanmalar məhdudlaşdıralacaqdır. Əsas məqsəd budur ki, şərqdən-qərbə və əksinə fəaliyyət göstərən beynəlxalq nəqliyyat dəhlizlərinin, beynəlxalq tariflər əsasında səmərəli tənzimlənməsi həyata keçirilsin, bununla yükdaşıma əməliyyatları sosial-iqtisadi cəhətdən sərfəli olsun, yükdaşıma dövriyyəsinə aparılan əməliyyatlara sərf edilən vaxt azaldılsın.

Respublikamızda nəqliyyat xidmətinin rəqəmsallaşdırılmasını beynəlxalq səviyyəyə çatdırmaq, nəqliyyat xidmətinin idarəedilməsini rəqəmsallaşdırmaq üçün bu sahədə sosial-iqtisadi cəhətdən problemlərin həllinə yönəlik araşdırmaların aparılmasını vacib sayırıq. Rəqəmsallaşmanın nəqliyyat xidmətində idarəetmənin alt sistemlərində tətbiqi mühim əhəmiyyət kəsb etdiyinə görə, bu mövzunun aktuallığını yüksək qiymətləndiririk. Burada nəqliyyat xidmətinin müəyyən sahələrində hərəkət istiqamətlərinin seçilməsi, hərəkət qrafikinin müəyyən olunması, fəaliyyətin planlaşdırılması və sair rəqəmsallaşmanın tətbiqini zəruri edir.

Xüsusilə də, işğaldan azad olunmuş ərazilərimizdə nəqliyyat xidmətinin inkişafı ilə bağlı olan resursların bu xidmətə daxil edilməsi xidmətin inkişafına təsir göstərən elmi tədqiqatların aparılması və praktiki əhəmiyyət kəsb edən təkliflərin hazırlanmasını obyektiv tələbata çevirir.

Beynəlxalq nəqliyyat xidmətinin genişlənməsi və ayrı-ayrı ölkələrin iqtisadiyatında həmin xidmətin üstün mövqe tutması, ölkənin ictimai həyatının bütün sahələrinin davamlı və dayanıqlı inkişafına təsirinin müxtəlif cəhətlərdən tədqiq olunması zərurətini yaratmışdır. Bütünlükdə nəqliyyat sektorunun inkişaf etdirilməsi istiqamətində Azərbaycanın bir çox iqtisadçı alimləri əsaslı tədqiqat aparmışlar. Bu iqtisadçı alimlərdən Səmədzadə Z.Ə., Əhmədov M.M., İmanov T.İ., Cavadov Ə.Ə., Hacızadə E.M və Abdullayev Z.S, Allahverdiyev S.S., Əliyev E.Ə., Əsədov A.M., Eyvazov E.E.

Balabəyova N.Ş. və başqaları tərəfindən müxtəlif səpgidə tədqiqatlar aparılmışdır. Xarici ölkə alimlərindən Dinesh Mohan və Geetam Tivari, Violeta Bulc və Henrik Hololei, başqalarının əsərlərində nəqliyyat sektorunun və rəqəmsallaşmanın inkişafının müxtəlif problemləri tədqiq olunmuşdur. Bu əsərlərdə nəqliyyat sektorunun sosial-iqtisadi məzmununa aydınlıq gətirilmiş, ayrı-ayrı problemlərin həlli yolları əsaslandırılmışdır. Lakin iqtisadiyyatın mühim tərkib hissəsi sayılan nəqliyyat sektorunun struktur, xüsusən xidmətləri yaradan, sahəsi kimi yanaşmaqla onun bütün səviyyələrində öyrənilməsi məsələlərinə həsr edilmiş sistemli, konkret tədqiqat işləri geniş müstəvidə aparılmamışdır. Azərbaycan Respublikasında nəqliyyat xidmətinin rəqəmsallaşdırılması zamanı qarşıya çıxan problemlərin aradan qaldırılması, idarə edilməsi, sitimullaşdırması, xidmət keyfiyyətinin daha da yüksəldilməsi yönümündə qarşıya çıxan çoxsaylı problemlər öz həllini tapmamışdır. Müasir dövrün qlobal çağırışları, Azərbaycanın sosial-iqtisadi inkişafının davamlı olmasında mühim rol oynayacaq, nəqliyyat xidmətinin inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsi, həm beynəlxalq, həm də milli iqtisadi inkişaf baxımından araşdırmalar aparılması və bu araşdırmaların səmərəli nəticə verməsi çox əhəmiyyətlidir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini nəqliyyat xidməti sahəsində fəaliyyət göstərən təşkilatlar, o cümlədən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyəti (QSC) və digər nəqliyyat obyektləri təşkil edir. Tədqiqatın predmetini yerüstü nəqliyyat xidməti ilə bağlı olan müəssisələrin idarəçilik mexanizmləri, nəqliyyat xidmətində idarəetmənin rəqəmsallaşdırılması və onun təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdrilmsi məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycan Respublikasında nəqliyyat xidmətinin idarə edilməsinin rəqəmsallaşdırılmasının təşkilati-iqtisadi mexanizmlərinin formalaşmasının elmi-nəzəri əsaslarını araşdırmaqdan, bu istiqamətdə mövcud vəziyyəti təhlil etməkdən, rəqəmsal nəqliyyat xidmətinin inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- nəqliyyat xidmətinin təşkilati-iqtisadi mexanizminin elmi metodoloji əsaslarını tədqiq etmək;
- nəqliyyat xidmətində rəqəmsallaşmanın əsas prinsiplərini araşdırmaq və intellektual idarəetmə sisteminə elmi yanaşmaq;
- nəqliyyat və logistik xidmətlərdə rəqəmsal biznes modellərini araşdırmaq və onların elmi praktiki əhəmiyyətini əsaslandırmaq;
- Azərbaycan Respublikasında nəqliyyat sistemində rəqəmsallşamnın təşkilati iqtisadi mexanizmlərinin təhlilini aparmaq;
- Azərbaycan Dəmir Yolları QSC-də yükdaşıma xidmətinin mövcud vəziyyətini təhlil etmək;
- yerüstü nəqliyyat xidmətləri şirkətlərində rəqəmsal marketinq strategiyalarının təkmilləşdirilməsi yollarını müəyyənləşdirmək;
- beynəlxalq nəqliyyat daşımalarının rəqəmsallaşmada təşkilati-iqtisadi mexanizmlərinin xarici təcrübəsini araşdırmaqdan ibarətdir.

**Tədqiqat metodları.** Dissertasiya işinin araşdırılmasında ümumiləşdirmə, müqayisə, təhlil-sintez, riyazi-statistik metodlardan, deduksiya-induksiya, sistemli yanaşma metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işi ilə bağlı müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

- Azərbaycan nəqliyyat sektorunun rəqəmsallaşdırılması, xüsusilə yerüstü nəqliyyat xidmətlərinin idarə edilməsinin təkmilləşdirilməsi və optimallaşdırılması istiqamətində nəzəri və praktiki məsələlər daim diqqət mərkəzində olmalıdır;
- rəqəmsal avtomatlaşdırma və idarəetmə sistemləri, nəqliyyat xidmətlərinin səmərəliliyini artıraraq, xidmət keyfiyyətini yaxşılaşdırmağa və istifadəçi məmnuniyyətini yüksəltməyə imkan verməlidir;
- nəqliyyat xidmətləri sektorunda rəqəmsal marketinq strategiyalarının tətbiqi ilə şirkətlər daha geniş müştəri bazasına çata bilər. Bu məqsədlə səmərəli xidmətlər təqdim edərək gəlir artımına nail olmalıdırlar;
- müasir rəqəmsal biznes modelləri, xüsusən yerüstü nəqliyyat və

logistika xidmətlərində tətbiq edildikdə, müştəri məmnuniyyətinin artırılması və gəlir artırma strategiyalarının daha səmərəli olmasına şərait yaradılmalıdır;

- beynəlxalq təcrübələr və nümunələrə əsasən, Azərbaycanın nəqliyyat sektorunun rəqəmsallaşmasının daha da təkmilləşdirilməsi üçün əlverişli təcrübələrdən istifadənin zəruriliyini ortaya qoyur. Nəticə etibarı ilə beynəlxalq təcrübələrdə istifadə olunan yaşıl texnologiyaların tətbiqi, nəqliyyat sektorunun ətraf mühitə təsirlərini minimuma qədər azaltmalıdır;
- yerüstü nəqliyyat xidməti şirkətlərində idarəetmə sistemlərinin rəqəmsallaşdırılması, iqtisadi və təşkilati proseslərin daha səmərəli idarə olunmasına imkan verməklə, resursların optimallaşdırılmasını təmin etməlidir;
- müasir rəqəmsal texnologiyalar və yenilikçi idarəetmə alətləri vasitəsilə müştəri məmnuniyyəti əhəmiyyətli dərəcədə artırıla bilər, bu da nəqliyyat xidmətlərinin səmərəli və davamlı inkişafını şərtləndirəcəkdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat əsərində əldə edilən elmi yenilikləri aşağıdakı kimi təqdim etmək olar:

- rəqəmsal nəqliyyat xidmətinin inkişafını təmin edəcək yeni idarəetmə mexanizmi verilmişdir. Bu struktur, rəqəmsallaşmanın daha səmərəli tətbiqinə imkan yaradır, idarəetmənin mərkəzləşdirilməsi və optimallaşdırılmasına kömək edə bilər;
- nəqliyyat xidmətlərində marketinq fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə yeni rəqəmsal marketinq mexanizmi təqdim edilmişdir. Bu mexanizm vasitəsilə rəqəmsal marketinq proseslərindən istifadə etməklə nəqliyyat xidmətinin səmərəliliyini artırmaq olar;
- nəqliyyat və logistika xidmətlərində yeni biznes modelləri təklif edilmişdir. Bu modellər müştəri məmnuniyyətini artırmaq və xidmətin keyfiyyətini yaxşılaşdırmaqla yanaşı, nəqliyyat şirkətlərinin daha çox gəlir əldə etməsinə imkan yarada bilər;
- yerüstü nəqliyyat xidməti şirkətləri üçün rəqəmsal marketinq strategiyasının qurulması mexanizmi irəli sürülmüşdür. Bu mexanizmlər yerüstü nəqliyyat xidməti şirkətlərində rəqəmsal

marketinq proseslərinin strateji əhəmiyyətini artıra, onun daha da inkişaf etdirilməsini təmin edə bilər;

- yerüstü nəqliyyat xidmətlərinin mobil tətbiqlər vasitəsi ilə rəqəmsallaşdırılaraq, üz tanıma sistemi ilə təkmilləşdirilməsi təklif edilir. Bu funksiya respublika ərazisində hələ ki, heç bir yerüstü nəqliyyat xidməti şirkətində mövcud deyildir. Yerüstü nəqliyyat xidməti şirkətlərində üz tanıma sistemi, müştəri məlumatlarının qorunmasını və müştəri gedişləri haqqında informasiyaların yayılmamasının qarşısını almaqla yanaşı informasiya təhlükəsizliyini təmin edə bilər;
- sosial şəbəkə reklamlarında hədəf auditoriyasının daha geniş şəkildə seçilməsinə imkan yaradan yeni bir mexanizm təqdim edilir. Bu mexanizm, reklam verənlərə auditoriya parametrlərini daha dəqiq və geniş şəkildə müəyyənləşdirmək imkanı verə bilər. Nəticədə, bu yanaşma marketinq fəaliyyətlərinin səmərəliliyini artıra, müştəri bazasının genişlənməsinə və müəssisənin satış həcminin artmasına müsbət təsir göstərə bilər. Bu isə, müəssisənin iqtisadi dayanıqlığını gücləndirə və ümumi bazar mövqeyini möhkəmləndirə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti, nəqliyyat sektorunda rəqəmsallaşdırmanın elmi yanaşmalarının inkişaf etdirilməsi, rəqəmsal idarəetmə mexanizmlərinin əsaslarının formalaşdırılması və sosial-iqtisadi proseslərdə rəqəmsallaşmanın təsirinin öyrənilməsi üçün nəzəri baza yaratmaqdan ibarətdir. Həmçinin, avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi ilə bağlı yeni tədqiqat istiqamətləri müəyyənləşdirilmiş, rəqəmsal biznes modellərinin nəzəri əsaslandırılması təmin edilmişdir.

Tədqiqatın praktiki əhəmiyyəti Azərbaycan nəqliyyat sektorunda rəqəmsallaşmanın səmərəli tətbiqi üçün təkliflər irəli sürmək, yerüstü nəqliyyat xidməti müəssisələrinin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə dair həllər təqdim etmək və rəqəmsal biznes modellərinin tətbiqi üçün konkret metodik yanaşmalar formalaşdırmaqdan ibarətdir. Bu nəticələr, nəqliyyat sektorunda xidmət keyfiyyətinin artırılması və innovativ idarəetmə alətlərinin geniş tətbiqi üçün əsas kimi istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi-nəzəri müddəaları, nəticə və təklifləri Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu jurnallar və konfrans materiallarında dərc olunmuş 6 məqalədə (1-i xaricdə olmaqla) və 9 tezisdə (3-ü xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Azərbaycan Respublikasında taksi xidmətlərinin innovativ xüsusiyyətləri və onun metodoloji əsasları" (Bakı, 2022), "Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişaf mərhələləri" (Bakı, 2021), "Nəqliyyatda rəqəmsallaşmanın elmi nəzəri əsasları" (Bakı, 2022), "Digital transport corridor and its nature" (Türkiyə, 2022), "Improving the digization of transport movement a charts: a research on Azerbaijan railways" (Türkiyə, 2022), "Implementation of automatic management systems in digital transport service in Azerbaijan" (Bakı, 2022), "Nəqliyyat sektorunda ekoloji təmiz texnologiyaların tətbiqi" (Bakı, 2024), "Improving digitization in freight and passenger transport in the transport sector" (Bakı, 2024), "Modern marketing strategies in transport service development" (Xarkov, Ukrayna-2025) və digər məruzə və tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin "Направления развития воздушного транспорта в Азербайджане" (Москва, 2022), "Azərbaycan Respublikasında nəqliyyat və logislik xidmətlərdə rəqəmsal biznes modellərinin inkişaf istiqamətləri" (Bakı, 2022), "Beynəlxalq nəqliyyat daşımalarında rəqəmsallaşmanın xarici təcrübəsinin öyrənilməsi" (Bakı, 2022), "İşğaldan azad olunmuş ərazilərdə nəqliyyat sektorunda rəqəmsallaşmanın istiqamətləri" (Gəncə, 2022), "Dəmir yolları QSC-də yükdaşımanın elektronlaşdırılmasının mövcud vəziyyətinin təhlili" (Gəncə, 2022), "Rəqəmsal nəqliyyat xidmətinin inkişafında süni intellektin tətbiqi məsələləri" (Bakı-2024) adlı məqalələri də dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Biznes Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi.** Dissertasiya işinin struktur tərkibi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (13455 işarə), I fəsil (61838 işarə), II fəsil (81769

işarə), III fəsil (59513 işarə), nəticə (10612 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (17360 işarə) üzrə ümumi həcm 259261 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 227187 işarədir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti, aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiya işinin birinci fəsli **"Rəqəmsal nəqliyyat xidmətinin idarə edilməsinin elmi-metodoloji əsasları"** adlandırılıb. Burada nəqliyyat xidmətinin təşkilati-iqtisadi mexanizminin elmi metodoloji əsasları, nəqliyyat xidmətində rəqəmsallaşmanın əsas prinsipləri və intellektual idarəetmə sisteminə elmi yanaşma, nəqliyyat və logistik xidmətlərdə rəqəmsal biznes modelləri və onların elmi praktiki əhəmiyyəti araşdırılmışdır. Nəqliyyat sektoru bəşər dövrünün ən böyük nailiyyətlərindən biri sayılır. Nəqliyyat sözü latınca trasporto sözündən əmələ gəlmişdir, hərfi mənası yerini dəyişirəm deməkdir. Başqa sözlə nəqliyyat təkrar istehsalın normal fəaliyyətini və digər sahələrin məhsul dövriyyəsini təmin etmək, yerdəyişmə proseslərində tələbi vaxtlı-vaxtında ödəmək, nəqliyyat sektorunda təhlükəsizlik xidməti mexanizmini yaratmaq, yaranacaq itkini maksimum azaltmaqdan ibarətdir.

Nəqliyyat xidmətinin əsas məqsədi yüklərin və sərnişinlərin bir yerdən başqa bir yerə rahat, təhlükəsiz şəkildə daşınmasını, çatdırılmasını özündə əks etdirir.

Akademik Z.Ə.Səmədzadə qeyd edir ki, nəqliyyat dedikdə ümumi mənada insanların və yüklərin daşınması; ictimai-maddi istehsalın ən mühim sahələrindən biri hesab edilir. Nəqliyyat sisteminə ümumi istifadəli dəmiryol nəqliyyatı, avtomobil nəqliyyatı, dəniz nəqliyyatı, çay nəqliyyatı, hava nəqliyyatı, boru kəməri nəqliyyatı, həmçinin, ümumi istifadəli olmayan sənaye nəqliyyatı daxildir.[1]

---

[1] Səmədzadə Z.Ə, Azərbaycan iqtisadiyyatı 100 ildə I-ci cild, Bakı-2021, 635s.

Professor A.M.Əsədov Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafının təmin olunması problemləri, adlı dissertasiya işində qeyd edir ki, "Beləliklə, nəqliyyat cəmiyyətin gündəlik həyatının mühüm tərkib hisəsi kimi inkişaf etməyə və təkmilləşməyə başladı. Təbii ki, nəqliyyat sisteminin formalaşması və inkişafında cəmiyyətin həyat tərzi, ölkənin iqlim şəraiti, coğrafi mövqeyi və s. kimi məsələlər də nəqliyyat sisteminə öz təsirini göstərirdi" [2].

Nəqliyyat xidmətinin ölkənin iqtisadi təsərrüfat həyatında çox böyük əhəmiyyəti vardır. Nəqliyyat sektorunun ölkə iqtisadiyyatında rolu çox mühimdür, çünki nəqliyyat sektoru ölkələr arasında olan yük daşımaların həyata keçirilməsini və ölkələr arası idxal-ixrac proseləri-nin təkmilləşdirilməsində, inkişafında mühim rol oynayır.

Nəqliyyat xidməti öz fəaliyyət mexanizmindən yararlanmaq üçün nəqliyyat əməliyyatlarından, təşkilati qərar qəbul etmədən, yük və sərnişin daşınmasından, əməyin və əmək haqqının elmi təşkilindən, xərclərin müəyyən edilməsindən, iqtisadi metodlarından istifadə etməklə bütün nəqliyyat rejimlərinin işinə nəzarət edir.

Müasir dövrdə də bütün xidmət sferalarının rəqəmsallaşması ilə paralel olaraq, nəqliyyat xidmətlərinin də rəqəmsallaşması aktual mövzulardan biridir. Buna əsasən də rəqəmsallaşma dedikdə, kağız üzərində olan məlumatların yığcam, çevik və operativ şəkildə istifadə edilməsi məqsədi ilə məlumatların elektronlaşdırılması başa düşülür. Rəqəmsallaşdırma informasiya texnologiyaları vasitələri, skaner, kamera, fiziki və analoq məlumatlardan rəqəmsal obyektlərin yaradılması mexanizmini özündə əks etdirir. Rəqəmsallaşdırma təkcə bir sahəyə yox, iqtisadiyyatın bütün sahələrinə tətbiq edilir. Nəqliyyat sisteminin rəqəmsallaşdırılması nəqliyyat xidmətində olan kağız məlumatların elektronlaşdırılmasını, orada olan şəffaflığın yaradılmasını özündə əks etdirir.

Biznes informasiyaları ilə yanaşı olaraq, nəqliyyat xidmətində rəqəmsallaşma iqtisadiyyatın gələcəyi üçün ən vacib inkişaf amillərindən biri sayıla bilər. Bundan ötrü şirkətlər rəqəmsal

---

[2] Əsədov A.M, Azərbaycan Respublikasında yeni nəqliyyat sisteminin formalaşması və davamlı inkişafının təmin olunması problemləri, Dissertasiya işi, Bakı-2022, 274 s.

strategiyalar hazırlayırlar. Hesab edirik ki, nəqliyyat xidmətində təkmilləşdirmə işlərinin həyata keçirilməsi nəticəsində rəqəmsallaşma səviyyəsi yüksələ, nəqliyyat xidmətlərində iş prosesi optimallaşa, vaxt intervalına qənaət edilə, bundan əlavə olaraq nəqliyyat infrastrukturunda informasiyaların ötürücülük qabiliyyəti arta bilər. İctimai nəqliyyatın rəqəmsallaşması nəqliyyat şirkətlərinin öz müştərilərinə xidmət zənciri üzrə inteqrasiya olunmuş rəqəmsal xidmətlər təklif etmək, həmçinin öz nəqliyyat əməliyyatlarını optimallaşdırmaq üçün yeni imkanlar təqdim edir.

Bizim fikrimizcə, xidmət yalnız nəqliyyat əməliyyatlarının məsmusu deyil, yük daşımalarına olan tələbatların ödənilməsi mexanizmidir. Nəqliyyat xidmətinin həyata keçirilməsində əsas amil nəqliyyat xidmətinin sistemli və planlı şəkildə həyata keçirilməsi hesab edilir. Bundan əlavə olaraq nəqliyyat xidmətində yüklərin təkcə çatdırılma prosesi deyil, çatdırılma prosesindən sonra həmin yükün istehlakçıya verdiyi fayda ən vacib məsələlərdən biri sayılır. Hər bir nəqliyyat növü fərqli texnoloji həllə malikdir, amma bəziləri isə ayrıca mühit tələb edir.Texnoloji həlləri və mühiti nəzərə alaraq nəqliyyat xidmətləri üzrə müxtəlif növ daşınmalar həyata keçirilir. Buna əsasən də nəqliyyat xidmətinin aşağıdakı növləri vardır (sxem 1).




**Sxem 1. Nəqliyyat xidmətlərinin növləri**

*Mənbə: sxem müəllif tərəfindən tərtib edilmişdir.*

Nəqliyyat xidmətində rəqəmsallaşmanı ehtiva edən proseslərin nəticəsində bu xidmət sferasında logistik xidmətlər formalaşmışdır. Nəqliyyat xidmətində logistik xidmətlər elm sahəsi kimi 1950-ci

illərdə formalaşmışdır. Logistika termini əvvəllər daha çox hərbi məqsədlər üçün istifadə edilmişdir, çünki logistika sahəsi hərbi qoşunlara təchizat və texnikanın hərəkət mexanizmini müəyyən etməyi öyrədirdi.

Müasir dövrdə logistika sahəsi həm biznes sektoru ilə əlaqələndirilir, həm də nəqliyyat xidmətinin ayrılmaz hissəsi kimi tanınır. Buna görə də xarici təcrübədə logistika xidmətlərinə aid edilən rəqəmsal biznes modellər nəqliyyat xidmətlərinə tətbiq edilmişdir. Logistika xidmətlərinin ardıcıllığından əlavə olaraq da nəqliyyat və logistikada platforma əsaslı biznes modellər mühim əhəmiyyət kəsb edir.

Nəqliyyat və logistik xidmətlərdə platforma əsaslı biznes modellər rəqəmsallaşmanın və texnoloji yeniliklərin inkişafı ilə birbaşa əlaqəlidir. Platformalar təchizat zəncirini optimallaşdırmaq, müştəri xidmətlərini təkmilləşdirmək və əməliyyat xərclərini azaltmaq üçün müxtəlif xidmət təminatçılarını və müştəriləri bir araya gətirən rəqəmsal ekosistemlər yaradır.

Platforma modeli fərqli istifadəçi qruplarını bir araya gətirən və qarşılıqlı əlaqələrini asanlaşdıran bir iş modelidir. Bu model müştəri və təminatçılar arasında əlaqə yaratmaqla yanaşı, xidmət və məhsul mübadiləsi üçün imkanlar təqdim edir. Platforma modeli təkcə nəqliyyat və logistika xidmətlərində deyil, bütün biznes platformaları üçün əlverişlidir. Platforma modelinin əsas xüsusiyyətləri və əhəmiyyəti aşağıdakı kimidir.

1. Ünsiyyətin qurulması. Burada platforma modeli müxtəlif istifadəçi qrupları arasında mübadilə imkanı təqdim edir. Buna misal olaraq taksi xidməti şirkətlərində bu platforma sürücüləri və sərnişinləri bir araya gətirə bilər. Sürücü və müştərilərin bir araya gəlməsi nəticəsində sürücü və müştəri arasında baş verən bütün problemlər həmin platformada həllini tapa bilər.

2. Platformada istifadəçi sayının artırılması. İstifadəçilər yalnız istehlakçı deyil, eyni zamanda platformanın aktiv iştirakçıları sayılır. Buna əsasən də platforma modelində istehlakçılar öz məzmunlarını yaratmaqla xidmət üzərində istəklərini qeydə ala bilərlər.

3. Şəbəkə səmərəliliyinin yüksəldilməsi. İstifadəçi sayı artdıqca platformanın dəyəri artır. Daha çox istifadəçi mübadilə dəyəri yaradır.

Məsələn, sosial media platformalarından daha çox insanın istifadə etməsi, daha çox əlaqə və məzmunun yaranmasına səbəb olur. Bu da nəticə etibarı ilə bütün sektorlar üçün faydalı ola bilər.

4. Təminatçılara xidmətlərin göstərilməsi. Platforma modeli, müştərilərə birbaşa xidmət təqdim edən təminatçılara (satıcılar, xidmət təminatçıları) imkan tanıyır. Bu, müştərilərin ehtiyaclarına daha uyğun xidmətlər əldə etməsini təmin edə bilər.

5. Yenilik imkanlarının olması. Platforma modeli, istifadəçilərin geri bildirimləri və yaradıcılığı nəticəsində yenilikləri özündə birləşdirir. İstifadəçilər platformanın inkişafına və yeni imkanların yaradılmasına kömək edə bilərlər. Platforma modelində müştəri tərəfindən təqdim edilən geri dönüşlər müəssisənin imkanlarını daha da genişləndirir. Bu da nəticə etibarı ilə müəssisədə gələcəkdə baş verə biləcək problemləri aradan qaldırmağa kömək edə bilər.

Dissertasiyanın ikinci fəsili **“Azərbaycanda nəqliyyat xidmətində rəqəmsallaşmanın tətbiqinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi”** adlandırılıb. Burada Azərbaycan Respublikasının nəqliyyat sistemində rəqəmsallaşmanın təşkilati-iqtisadi tətbiqi mexanizmlərinin təhlili və qiymətləndirilməsi, Azərbaycan Dəmir Yolları QSC-də yükdaşıma xidmətinin elektronlaşdırılmasının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi, beynəlxalq nəqliyyat daşımalarının rəqəmsallaşmasında təşkilati-iqtisadi mexanizmin xarici təcrübəsi və müqayisəli təhlili öyrənilmişdir.

Nəqliyyat sektorunun rəqəmsallaşması, ənənəvi nəqliyyat və logistika əməliyyatlarını tamamilə yeni səviyyəyə qaldıraraq, real vaxt rejimində məlumat mübadiləsi, avtomatlaşdırılmış proseslər və ağıllı idarəetmə sistemləri vasitəsilə daha sürətli və dəqiq xidmət göstərilməsini təmin edir. Bu yanaşma təkcə xərclərin azaldılması və səmərəliliyin artırılmasına deyil, eyni zamanda ətraf mühitin qorunmasına, enerji sərfiyyatının optimallaşdırılmasına və karbohidrogen emissiyalarının azalmasına da əhəmiyyətli töhfə verir. Rəqəmsallaşma nəticəsində həm sərnişinlər, həm də yük sahibləri şəffaf və təhlükəsiz nəqliyyat xidmətlərindən faydalana bilirlər, çünki rəqəmsal texnologiyalar ilə idarə olunan sistemlər xidmətlərin keyfiyyətini və sürətini əhəmiyyətli dərəcədə artırır. Buna görə də

respublikamızda yük və sərnişin daşınmalarının statistik göstəriciləri təhlil edilmişdir.

Azərbaycan Respublikasında nəqliyyat xidməti gündən-günə inkişaf edir. Respublikamızda nəqliyyat xidmətində yüklər əsasən hava, dəmir yol, dəniz, avtomobil nəqliyyatı, boru, neft və qaz kəməri ilə daşınılır, xırda detallı yüklərin daşınması isə poçt vasitəsi ilə həyata keçirilir. Respublikamızda digər mühim daşımalardan biri də əsasən sərnişin daşınmasıdır. Respublikamızda sərnişin daşınmalarında ən çox istifadə edilən nəqliyyat vasitələri avtobuslar və fərdi minik avtomobilləridir. Aşağıda göstərdiyimiz cədvəl 1 və 2-də respublikamızda nəqliyyat sektorunda daşınılan yük və sərnişin daşınmasının statistik göstəriciləri verilmişdir. Bu göstəricilər 2000-ci ildən 2023-ci illər tarixində nəqliyyat sektorunda daşınılan yük və sərnişin daşımalarının hansı sektor üzrə nə qədər daşındığını özündə əks etdirmişdir.

**Cədvəl 1.**

**Nəqliyyat sektorunda yük daşınması, min tonla**

| | **2016** | **2020** | **2021** | **2022** | **2023** | **2023-c ilin 2016-ci ilə nisbətən %-lə** |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | **222 461** | **188 629** | **193 903** | **218 716** | **229 897** | **+3,3 %** |
| Dəmir yolu | 15 479 | 14 631 | 15 058 | 18.730 | 18 276 | +18 % |
| Dəniz | 5807 | 5982 | 5468 | 7519 | 9 011 | +55 % |
| Hava | 160 | 458 | 557 | 407 | 357 | +123% |
| Boru kəməri | 59 556 | 56 040 | 60 298 | 66 035 | 68 037 | +14,2 % |
| Neft kəməri | 44 129 | 34 720 | 35 018 | 37 782 | 39 753 | -9,9 % |
| Qaz kəməri | 15 427 | 21 320 | 25 280 | 28 253 | 28 284 | +83,3 % |
| Avtomobil | 141 459 | 111 518 | 112 522 | 112 252 | 134 216 | -5,1 % |

*Mənbə:Cədvəl* https://www.stat.gov.az/source/transport/ *məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cəmi nəqliyyat həcmi: 2016-2023-cü illər ərzində ümumi nəqliyyat həcmi 222,461 milyondan başlayaraq 229,897 milyona qədər artmışdır. Əsasən illər üzrə stabillik müşahidə olunur, yalnız 2020-ci

ildə göstəricilər 188,629 milyona enmişdir. 2023-cü ilin ilk yarısında ümumi nəqliyyat həcmi 2022-ci ilə nisbətən çox cüzi artım göstərib (5.11%).Yuxarıda təqdim olunan statistik göstəricilər ilə yanaşı olaraq, nəqliyyat sektorunda sərnişin daşınmasından əldə olunan gəlir aşağıdakı cədvəldə əks olunmuşdur (cədvəl 2).

**Cədvəl 2.**

**Nəqliyyat sektorunda sərnişin daşınmasından əldə olunan gəlir min manat**

| İllər | Gəlir | Dəmir yolu | Dəniz | Hava | Avtobus | Metro |
|---|---|---|---|---|---|---|
| **2000** | 134 130 | 4 285 | 424 | 32 925 | 66 473 | 4 446 |
| **2001** | 143 478 | 6 254 | 401 | 37 494 | 68 583 | 4 552 |
| **2002** | 154 515 | 6 859 | 515 | 44 222 | 69 501 | 5 436 |
| **2003** | 179 797 | 9 751 | 455 | 60 794 | 73 043 | 5 960 |
| **2004** | 215 933 | 14 070 | 704 | 83 282 | 79 568 | 6 450 |
| **2005** | 240 367 | 17 282 | 685 | 96 680 | 86 314 | 6 958 |
| **2006** | 273 793 | 21 901 | 731 | 113 439 | 94 687 | 7 714 |
| **2007** | 357 017 | 26 544 | 625 | 153 614 | 121 862 | 8 530 |
| **2008** | 456 634 | 41 553 | 940 | 192 652 | 156 349 | 10 350 |
| **2009** | 479 877 | 29 447 | 889 | 155 437 | 211 379 | 11 389 |
| **2010** | 522 669 | 20 388 | 1 166 | 132 319 | 255 773 | 28 775 |
| **2011** | 637 933 | 20 175 | 4 213 | 181 853 | 301 812 | 28 768 |
| **2012** | 703 159 | 15 768 | 1 512 | 225 628 | 313 583 | 40 807 |
| **2013** | 780 503 | 15 135 | 1 259 | 262 433 | 344 627 | 42 804 |
| **2014** | 866 888 | 14 452 | 1 010 | 298 624 | 386 327 | 42 519 |
| **2015** | 916 207 | 12 130 | 812 | 296 907 | 423 802 | 43 005 |
| **2016** | 1 005 292 | 13 158 | 698 | 336 421 | 458 130 | 42 262 |
| **2017** | 1 175 120 | 14 240 | 932 | 461 998 | 487 691 | 44 322 |
| **2018** | 1 360 696 | 14 674 | 1 615 | 528 459 | 578 402 | 54 186 |
| **2019** | 1 956 159 | 16 600 | 2 284 | 1 018 198 | 643 571 | 68 917 |
| **2020** | 912 765 | 4 248 | 1 128 | 343 383 | 408 815 | 21 623 |
| **2021** | 1 298 349 | 1 837 | 2 996 | 635 110 | 474 553 | 26 154 |
| **2022** | 2 239 187 | 4 827 | 6 179 | 1 261 872 | 681 886 | 60 750 |
| **2023** | 2 672 397 | 9 274 | 3 923 | 1 473 613 | 870 662 | 83 483 |

*Mənbə: Cədvəl https://www.stat.gov.az/source/transport/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Yuxarıda təqdim olunan statistik göstəriciləri daha sistemli təhlil aparmaq məqsədi ilə cədvəl formatında hazırlanmış məlumatlardan istifadə edilərək, ekonometrik iqtisadi model qurulmuşdur. Bu iqtisadi

model vasitəsilə göstəricilər arasındakı əlaqələr və təsir gücləri qiymətləndirilmişdir. Cədvəllərdə verilən məlumatlar ekonometrik modelin qurulması və analiz edilməsi üçün ilkin baza rolunu oynamış, nəticədə hərtərəfli təhlil həyata keçirilmişdir. Ekonometrik iqtisadi model aşağıdakı cədvəl 3-də əks olunmuşdur.

**Cədvəl 3.**

**Nəqliyyat sektorunda sərnişin daşınmasından əldə olunan gəlirlə göstəricilər arasında ekonometrik iqtisadi model**

| | | | | |
|---|---|---|---|---|
| ***GƏLİR*** | | | | |
| ***METOD: Least Squares*** | | | | |
| ***VAXT: 11/25/24 Time: 22:58*** | | | | |
| ***Sample: 2000 2023*** | | | | |
| ***DAXİL OLAN GÖSTƏRİCİLƏR: 24*** | | | | |
| **Variable** | **Coefficient** | **Std. Error** | **t-Statistic** | **Prob.** |
| X1 | 0.964407 | 0.220236 | 4.378979 | 0.0004 |
| X2 | 3.280879 | 2.069232 | 1.585554 | 0.1303 |
| X3 | 0.970036 | 0.013744 | 70.57828 | 0.0000 |
| X4 | 1.344535 | 0.035646 | 37.71858 | 0.0000 |
| X5 | 0.847013 | 0.279975 | 3.025316 | 0.0073 |
| C | 6612.556 | 5560.070 | 1.189294 | 0.2498 |
| **R-squared** | 0.999865 | Mean dependent var | 820119.4 | |
| **Adjusted R-squared** | 0.999827 | S.D. dependent var | 685783.5 | |
| **S.E. of regression** | 9022.504 | Akaike info criterion | 21.26515 | |
| **Sum squared resid** | 1.47E+09 | Schwarz criterion | 21.55966 | |
| **Log likelihood** | -249.1818 | Hannan-Quinn criter. | 21.34328 | |
| **F-statistic** | 26571.67 | Durbin-Watson stat | 1.959011 | |
| **Prob(F-statistic)** | 0.000000 | | | |

*Mənbə: Ekonometrik iqtisadi model müəllif tərəfindən tərtib edilmişdir.*

Ekonometrik iqtisadi modelin izahı aşağıdakı kimidir:

1. Asılı dəyişən: Y-Bu dəyişən izah edilməyə çalışılan göstəricidir. Məsələn, iqtisadi artım, istehlak, gəlir, mənfəət aid edilir. Sərbəst dəyişənlər X1, X2, X3, X4, X5 asılı dəyişənə təsir göstərir.

2. Metod: Ən kiçik kvadratlar metodu-Bu ən geniş yayılmış

statistik metodlardan biridir və modelin proqnozlarında səhvi minimuma endirməyə çalışır.

3. Müşahidələr:Model 2000-2023-cü illəri əhatə edir və bu dövrdəki məlumatlar istifadə edilib. Buraya 24 göstərici daxil edilir.

Ekonometrik iqtisadi modelin əsas nəticələr aşağıdakı kimidir:

Dəyişənlər və əmsallar:

- X1 (dəmir yolu) (0.964): Çox yüksək t-statistik (4.38) və çox kiçik ehtimal dəyəri (p = 0.0004). Bu o deməkdir ki, X1-in Y üzərində təsiri əhəmiyyətlidir.
- X2 (dəniz) (3.280): Bu dəyişən üçün p-dəyəri (p=0.13) əhəmiyyət səviyyəsindən (adətən 0.05) böyükdür. Yəni, X2-nin Y üzərində statistik olaraq əhəmiyyətli təsiri yoxdur.
- X3 (hava) (0.970): Çox yüksək t-statistik (70.58) və p = 0.0000, bu dəyişənin çox əhəmiyyətli olduğunu göstərir.
- X4 (avtobus) (0.847): Əhəmiyyətlidir (p = 0.0073).
- X5 (metro) (1.345): Həmçinin yüksək əhəmiyyət dərəcəsinə malikdir (p = 0.0000). Ekonometrik iqtisadi modeldə modelin gücü isə aşağıdakı kimidir:
- Determinasiya əmsalı (R-squared-0.999865): Bu göstərici modelin asılı dəyişənin dəyişməsini izah etmək gücünü göstərir.
- Tənzimlənmiş determinasiya əmsalı (Adjusted R-squared-0.999827): Tənzimlənmiş r-kvadrat göstəricisi modelin həqiqi gücünü göstərir.
- F-statistik (26571.67): Bu, ümumilikdə modelin əhəmiyyətini göstərir. P-dəyəri (statistik testlərin nəticələrinin təsadüfi olub-olmamasını müəyyən edir) (0.0000) modelin yüksək əhəmiyyətli olduğunu təsdiqləyir. Nəqliyyat sektorunda sərnişin daşınmasından əldə olunan gəlirlə göstəricilər arasında ekonometrik iqtisadi modelin yekunu aşağıdakı kimidir:

1. X1, X3, X4 və X5 dəyişənlərinin asılı dəyişən Y üzərində əhəmiyyətli təsiri var.
2. X2-nin təsiri isə əhəmiyyətli deyil.
3. Model ümumilikdə çox güclü izahat qabiliyyətinə malikdir (R-squared yüksəkdir).

Azərbaycan Respublikasında dəmir yol nəqliyyat növü yarandığı gündən etibarən yenilənir və inkişaf edir. Azərbaycan dəmir yollarında

yük daşımalarının idarə olunmasında müəssisə smart proqram təminatından istifadə edir. Respublikamızda yüklərin daşınmasında quru yolu ilə yükdaşıma, dəniz yolu ilə yükdaşıma, hava yolu ilə yükdaşıma, eləcə də dəmir yolu ilə yükdaşıma mövcuddur. Müştərinin istək və ehtiyaclarını, həmçinin yükün və büdcənin xüsusiyyətlərini nəzərə alaraq, peşəkar logistik müəssisələr daşınmanı həyata keçirir. Daşınmaların həyata keçirilməsində smart proqramının üstünlükləri çoxdur. Smart proqramının istifadəsi dəmir yolunda 2017-ci ilə təsadüf edir. Bu proqramın aşağıdakı funksiyaları vardır (sxem 2).




**Sxem 2. Smart proqramının funksiyaları.**

*Mənbə: sxem müəllif tərəfindən tərtib edilmişdir*

Sxem 2-dən göründüyü kimi dəmir yol nəqliyyatının inkişaf etdirilməsinin nəticəsi əsasən dəmir yolunda yükdaşıma xidmətinin elektronlaşdırılmasıdır. Nəqliyyat və tranzit yükdaşımalarının əsas məqsədi ölkənin dəniz nəqliyyatı, dəmir yolları, tranzit yükdaşımaları vasitəsi ilə həyata keçirilən zaman müqavilələrin şəffaflaşdırılması, yük daşıma xidmətlərinin elektronlaşdırılması, bir pəncərə prinsipinin tətbiqi məsələlərinin həyata keçirilməsini təmin etməkdən ibarətdir. Hazırda Azərbaycan Dəmir Yollarında yük daşımalarının idarə olunması Dəmir Yolları Qapalı Səhmdar Cəmiyyəti tərəfindən həyata keçirilir. Sistemdə beynəlxalq daşımalarda yük qatarlarının sərhədlərdən qəbulu və təhvili yerinə yetirilir. Professor E.Ə.Əliyev qloballaşma dövründə beynəlxalq nəqliyyat daşımaları: hüquqi aspektləri monoqrafiyasında qeyd edirdi ki, daşıma prosesində iştirak edən nəqliyyat xidmətlərinə görə beynəlxalq daşımaların iki növü fərqləndirilir:

- asan daşımalar;
- çox müərəkkəb xarakterli olan daşımalar.[3]

Burada Almaniya, İngiltərə, Danimarka, Latviya, Çin Xalq Respublikası, Türkiyə və Cənubi Koreya Respublikası kimi müxtəlif ölkələrin rəqəmsal nəqliyyat xidmətlərini araşdırmaqla, sektorun inkişaf səviyyəsini qiymətləndirmək və beynəlxalq təcrübələrdən öyrənməklə gələcək inkişaf üçün konkret təkliflər irəli sürmək imkanı yaradıla bilər. Bu ölkələrin hər biri coğrafi mövqeləri, iqtisadi gücləri və nəqliyyat sahəsindəki strategiyaları baxımından fərqlənir. Tədqiqat aparılan ölkələrin nəqliyyat sistemləri aşağıdakı kimi təsnifləşdirilir:

1. İngiltərə nəqliyyat sistemi müasir və geniş şəbəkəyə malikdir, burada dəmir yolu, avtobus, metro və hava nəqliyyatı xidmətləri yüksək standartlarla təmin edilir. Buna əsasən də sərnişinlərin və yüklərin səmərəli daşınması da asanlaşır.

2. Almaniya nəqliyyat sistemi, geniş və inkişaf etmiş infrastruktur, yüksək sürətli dəmir yolları, səmərəli yol şəbəkəsi və müasir hava limanları ilə tanınır, bu da sərnişin və yük daşımalarının sürətli, təhlükəsiz şəkildə daşınmasına imkan verir.

3. Danimarka kiçik bir ölkə olmasına baxmayaraq, nəqliyyat sistemində yüksək səmərəli və davamlılıq prinsipləri ilə tanınır. Xüsusilə şəhər içi nəqliyyat və velosiped infrastrukturu sahəsində qabaqcıl təcrübəyə malikdir. Danimarka həmçinin dəniz nəqliyyatı ilə məşhurdur, çünki ölkə beynəlxalq ticarətdə böyük rola malikdir və limanlar vasitəsilə yük daşımaları həyata keçirir. Bərpa olunan enerji mənbələri və ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin geniş istifadəsi Danimarkanın nəqliyyat sistemini özəlidir.

4. Latviya Baltik ölkələri arasında əhəmiyyətli bir tranzit mərkəzidir. Dəmir yolu və dəniz nəqliyyatı bu ölkədə əsas rol oynayır. Ölkənin Riqadakı dəniz limanı regional ticarət və logistika mərkəzi kimi fəaliyyət göstərir. Avropaya və Asiyaya olan strateji yaxınlığı, Latviyanın tranzit potensialını artırır. Bununla belə, iqtisadi resursların məhdudluğu səbəbindən nəqliyyat infrastrukturu tam şəkildə rəqəmsallaşmayıb.

---

[3] Əliyev E.Ə/ Qloballaşma dövründə beynəlxalq nəqliyyat daşımaları. Monoqrafiya. Bakı-2006, 360 s.

5. Çin Xalq Respublikası nəqliyyat sahəsində dünya liderlərindən biridir və infrastruktur inkişafı baxımından nümunə göstərilə bilər. Ölkə sürətli qatar xətləri, geniş avtomobil yolları və limanlar şəbəkəsi ilə qlobal logistikanın əsas mərkəzlərindən biridir. "Bir Kəmər, Bir Yol" layihəsi ilə Çin qlobal ticarət yollarının yenidən qurulmasında mühim rol oynayır. Süni intellektin tətbiqi və rəqəmsallaşma prosesləri Çin nəqliyyatında xüsusilə sürətli irəliləyişlərə gətirib çıxarır.

6. Türkiyə nəqliyyat sektoru tranzit ölkə kimi mühim rol oynayır. Ölkə qlobal və regional səviyyədə strateji mövqeyindən istifadə edərək hava, dəniz, dəmir yolu nəqliyyatını inkişaf etdirir. İstanbul hava limanı dünyanın ən böyük hava limanlarından biridir və Türkiyə beynəlxalq ticarət yollarının kəsişmə nöqtəsində yerləşir. Marmaray və digər layihələr də Türkiyənin nəqliyyat sistemini dah da gücləndirir.

7. Cənubi Koreya Respublikası texnoloji baxımdan yüksək inkişaf etmiş bir ölkə sayılır və bu nəqliyyat sektoruna da öz təsirini göstərir. Ölkədə metro sistemləri, sürətli qatarlar, ağıllı şəhər layihələri və avtomatlaşdırılmış nəqliyyat sistemləri geniş tətbiq olunur. Rəqəmsallaşma və texnoloji innovasiyalar Cənubi Koreyanın nəqliyyat sektorunu qabaqcıl edir. Hava və dəniz limanları, xüsusilə Asiya və Sakit okean regionunda əhəmiyyətli rol oynayır.

Üçüncü fəsil **"Azərbaycanda rəqəmsal nəqliyyat xidmətinin inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətləri"** adlandırılıb. Burada Azərbaycanda rəqəmsal nəqliyyat xidmətində avtomatlaşdırılmış idarəetmə sistemlərinin inkişaf istiqamətləri, Bakı sərnişin daşıma şirkətində rəqəmsal marketinqin təkmilləşdirilməsi yolları, nəqliyyat sektorunda yük və sərnişin daşımalarında rəqəmsallaşmanın təşkilati-iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi müəyyənləşdirilib.

Avtomatlaşdırılmış idarəetmə sistemi, minimal və ya heç bir insan müdaxiləsi olmadan bir funksiyanı yerinə yetirmək üçün nəzərdə tutulmuş sensorların, idarəetmə vasitələrinin inteqrasiyasıdır. Avtomatlaşdırılmış idarəetmə sistemləri kompüter sistemlərinin, şəbəkə cihazlarının və ya maşınların heç bir əl müdaxiləsi olmadan işləməsinə imkan verən proqram kompleksini özündə birləşdirir. Avtomatlaşdırılmış idarəetmə sistemləri quraşdırıldığı yerdə fiziki olaraq insan müdaxiləsi olmadan işləməyə imkan verir.

Avtomatlaşdırılmış idarəetmədə sistem proqram təminatı vasitəsi ilə proseslərin tam avtomatlaşdırılmasını təmin edir. Bu sistem nəqliyyat xidmətində idarəetmənin müasir tələblərə uyğunlaşmasında xüsusi yer tutur. Bu mənada nəqliyyat xidmətində avtomatlaşdırma sisteminin əsas məqsədi nəqliyyat sektorunda baş verən bütün proseslərdə insan müdaxiləsini azaltmaqdan ibarətdir.

Nəqliyyat sektorunda avtomatlaşdırılmış idarəetmə sistemləri rəqəmsallaşmaqla kompüter sistemləri ilə birbaşa əlaqədardır. Bu mənada daha geniş informasiya sistemləri də hər hansı qarşıya qoyulmuş məqsədə çatmaq üçün yığılan məlumatların əldə edilməsini, saxlanılmasını, onların emal edilməsi, ötürülməsi üçün istifadə olunan bir-birilə qarşılıqlı əlaqədə olan vasitə və üsulların toplusuna çevrilir.

Nəqliyyat xidmətində informasiya təminatının avtomatlaşdırılmasının geniş tətbiqinin əsas hədəf mövqeyi sektorda istifadə olunan proqramların tətbiqindən ibarət olub, sistemin elektron hökumətin imkanlarından istifadəsini özündə əks etdirir. İdarəetmə sistemində idarəetmə prosesi əsasən ardıcıllıqla həyata keçirilir. İdarəetmənin obyekt və subyektləri bir-biri ilə qarşılıqlı şəkildə vəhdət təşkil edir. Burada əsasən müəssisələr, təşkilatlar həmin müəssisələri idarə edən şəxslər mühim yer tutur. İdarəetmədə idarə edilən və idarə edənin üzərinə müvafiq olaraq tapşırıqlar, vəzifələr və öhdəliklər düşür. Nəqliyyat müəssisələrinin göstərdiyi xidmətlərin idarə edilməsində siyasi-hüquqi fəaliyyət, sosial-mədəni həyat qaçılmaz amillərdən biri sayılır.

Nəqliyyat xidmətində avtomatlaşdırılmış idarəetmə sistemində xidmət satışının həyata keçirilməsində rəqəmsal marketinqin mühim əhəmiyyəti vardır. Nəqliyyat xidmətində rəqəmsal marketinqin təkmilləşdirilməsi istiqamətləri müəssisənin müştərilərlə daxili-xarici əlaqələrdə mövcudluğu arasındakı nisbətləri artırmaq üçün müəssisənin təşkilati-iqtisadi vəziyyətinə uyğun bir neçə strateji addımları əhatə edir. Bu strateji addımlar içərisində əsas yanaşmalar aşağıdakılardan ibarətdir.

1. Hədəf auditoriyasını başa düşmək-hədəf auditoriyanızı müəyyən etmək üçün hərtərəfli bazar araşdırması aparmaq lazımdır. Burada statistik məlumatları, müştərinin maraqları və davranışları haqqında məlumat toplamaq üçün google təhlilinin aparılması daxil olmaqla,

sosial mediada sorğular həyata keçirmək nəqliyyat xidmətinə iqtisadi fayda gətirə bilər.

2. Veb saytın optimallaşdırılması-Axtarış motorlarının reytinqini yüksəltmək üçün ən yaxşı axtarış motorlarının optimallaşdırılması təcrübələrini tətbiq etməklə, məzmunu mütəmadi olaraq yeniləməklə və texniki problemləri həll etməklə bu nəticəni rahatlıqla əldə etmək olar.

3. Məzmun marketinqi-auditoriyanızın maraqlarına uyğunlaşdırılmış yüksək keyfiyyətli, dəyərli məzmun yaratmaq, məzmun yazılardan, videolardan istifadə etmək, məhsula görə məzmunu ardıcıl olaraq yeniləmək və açar sözlərdən yararlanmaq müəssisənin məzmun marketinqinə öz təsirini edəcəkdir. Bu da iqtisadi cəhətdən müəssisəyə fayda gətirə bilər.

4. Sosial media nişanı-müvafiq sosial media platformalarında aktiv iştirak etmək, daimi olaraq sosial platformalarda məzmun yazmaq, izləyicilərlə onlayn əlaqə saxlamaq, xüsusi statistik göstəriciləri təhlil etmək üçün sosial media reklamlarından istifadə etmək, sosial platformaları müəssisənin strategiyasına uyğunlaşdırmaq müəssisənin imicinə müsbət rəsir göstərə bilər.

Nəqliyyat xidmətində rəqəmsal mühitin əsas hissəsi nəqliyyat infrastrukturunun rəqəmsallaşması, nəqliyyat xidmətlərinin rəqəmsal aləmə cəlb edilməsi, həmçinin nəqliyyat xidmətlərinin proqram təminatı ilə idarə olunması aiddir. Nəqliyyat sektorunda sərnişin daşıma üzrə rəqəmsallaşmanın əsas göstəricilərindən biri də, nəqliyyat sektorundan istifadə edən əhalinin keyfiyyət göstəricisidir. Rəqəmsallaşma işlərinin necə səmərəli olduğunu görmək və qarşıya çıxan problemləri rahatlıqla aradan qaldırmaq üçün sərnişinlərin keyfiyyət göstəricilərini nəzərdən keçirmək lazımdır. Sərnişinlərin keyfiyyət göstəriciləri aşağıdakılardır:

- hərəkətin təhlükəsizliyini təmin etmək;
- sərnişinlərin hərəkətə dair sərf etdiyi vaxt;
- hərəkət müntəzimliyini təmin etmək;
- avtobuslarda sıxlığ şəraitinin aradan qaldırılması.

# NƏTİCƏ

Apardığımız nəzəri ümumiləşmələr və araşdırılan məlumatların nəqliyyat sektorunda rəqəmsallaşmanın inkişaf istiqamətlərinə və milli iqtisadiyyatımızın inkişafına təsiri vardır. Azərbaycanın nəqliyyat sektorunda rəqəmsallaşma, ölkənin müasir texnologiyaları və rəqəmsal strategiyaları tətbiq etməklə sürətlə inkişaf edir. Bu inkişaf həm iqtisadi, həm də sosial sahədəki dəyişikliklərlə əlaqədardır. Tədqiqatlar göstərir ki, nəqliyyat xidmətlərinin müasirləşdirilməsi və rəqəmsallaşması Azərbaycan iqtisadiyyatında mühim əhəmiyyət kəsb edir. Azərbaycanın milli səviyyədə tətbiq etdiyi güclü texnoloji bazalar və dövlət proqramları, bu sahədə dayanıqlı inkişafın təmin olunmasına zəmin yaradır. Dövlət və özəl sektor arasındakı əməkdaşlıq, beynəlxalq inteqrasiya ölkənin nəqliyyat sektorunun gələcəyini daha parlaq edir. Bu nöqteyi nəzərdən apardığımız tədqiqatlara görə aşağıdakı nəticələrə gəlmək olar:

- rəqəmsallaşmanın əsas təsiri özünü nəqliyyat xidmətlərinin iqtisadi səmərəliliyin yüksəldilməsində və müştəri məmnuniyyətində özünü göstərir. Avtomatlaşdırılmış idarəetmə sistemləri, izləmə texnologiyaları və elektron ödəniş vasitələri nəqliyyat xidmətlərində çevikliyi artırır, müştəri təcrübəsini zənginləşdirir. Bu texnologiyalar eyni zamanda, sektorda əməliyyat xərclərinin azaldılmasına və resurs idarəetməsinin inkişafına şərait yaradır;
- dissertasiyanın nəticələrinə görə, rəqəmsal marketinqin tətbiqi, xüsusilə axtarış mexanizminin optimallaşdırılması və axtarış mexanizminin satışı strategiyalarının düzgün istifadəsi, nəqliyyat şirkətlərinin müştərilərə daha yaxın olmasına və nəqliyyat xidmətlərinin daha çox tanınmasına şərait yaradır. Bu, həm yerli, həm də beynəlxalq bazarlarda şirkətlərin rəqabət gücünü artırır və müştəri bazasının genişlənməsini təmin edir. Eyni zamanda Bakıda yerüstü nəqliyyat xidməti şirkətində rəqəmsal marketinq strategiyasında intellektual idarəetmə sistemlərinin tətbiqi müştərilərin xidmətlərə əlçatanlığını təmin edir və nəqliyyat xidmətlərinin çevikliyini artırır. Bu meyl həmçinin nəqliyyat sektorunun sosial-iqtisadi inkişafına təsirini gücləndirir;
- beynəlxalq təcrübə Azərbaycan üçün mühim bir model rolunu

oynayır və sektorda yeni texnologiyaların tətbiqinə istiqamətlənməyi zəruri edir. Avropada və Şimali Amerikada həyata keçirilən rəqəmsal nəqliyyat layihələri, Azərbaycanda bu sahədə inkişafı sürətləndirmək üçün faydalı ola bilər. Məsələn, avtomatlaşdırılmış sistemlərin və rəqəmsal nəqliyyat platformalarının inteqrasiyası, beynəlxalq rəqəmsal nəqliyyat təcrübələrinin Azərbaycanın özəl və dövlət sektorlarına tətbiqinə yol aça bilər;

- Azərbaycanın nəqliyyat sektorunda rəqəmsallaşmanın tətbiqi müasir idarəetmə texnologiyalarının mənimsənilməsini və nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılmasını vacib edir. Rəqəmsallaşdırma prosesinin daha sistemli həyata keçirilməsi üçün dövlət dəstəyi, innovativ biznes modellərinin inkişafı və intellektual idarəetmə sistemlərinin tətbiqi mühim əhəmiyyət daşıyır. Bu yanaşma nəqliyyat sektorunun rəqabətqabiliyyətliliyini artırmaqla yanaşı, milli iqtisadi inkişafın sürətləndirilməsinə dəstək verir;
- Azərbaycanda nəqliyyat sektorunda rəqəmsallaşma, xüsusilə intellektual idarəetmə sistemlərinin tətbiqi, xidmət keyfiyyətinin yüksəldilməsi və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi mühim amil kimi çıxış edir. Rəqəmsal ekosistemlərin inkişafı sayəsində nəqliyyat əməliyyatlarının şəffaflığı, səmərəliliyi və operativliyi artırılaraq həm daxili, həm də beynəlxalq bazarlarda rəqabətqabiliyyətlilik təmin olunur. Əldə olunan nəticələr bizə deməyə əsas verirki, rəqəmsallaşma nəqliyyat xidmətində tək texniki əhəmiyyət kəsb etmir, həm də nəqliyyat xidmətinin iqtisadi və sosial inkişafına təminat verə bilər. İdarəetmə sistemlərinin təkmilləşdirilməsi və dövlət-özəl tərəfdaşlıqlarının gücləndirilməsi isə rəqəmsallaşmanın səmərəli tətbiqinə dəstək verir. Dövlət və özəl sektorun koordinasiyası, sektorda innovativ layihələrin həyata keçirilməsini sürətləndirir. Nəticədə, Azərbaycanın nəqliyyat sektoru həm regional, həm də beynəlxalq bazarda daha səmərəli və rəqabətədavamlı hala gəlir. Araşdırılan nəzəri-metodoloji məsələlər və faktlar əsasında aparılan təhlilin məntiqi nəticəsi olaraq aşağıdakı təkliflər məqbul sayılır:

1. Axtarış platformasında axtarış mexanizminin satışı strategiyalarının inkişaf etdirilməsi müəssisənin marketinq fəaliyyətinin bir hissəsidir. Bu sahədə sosial-iqtisadi səmərəliliyinin artırılmasının

məqsədi nəqliyyat şirkətləri vebsaytlarını axtarış reytinqlərində artırılmaqla və müəssisə strategiyalarının onlayn görünüşlüyü ilə inteqrasiyasını təmin etməlidirlər. Axtarış mexanizminin satışı kampaniyaları vasitəsilə nəqliyyat şirkətləri google reklamlar və digər reklam platformalarından istifadə edərək daha çox müştəri cəlb edə bilər. Bu strategiyalar, onlayn marketinq vasitəsilə müəssisənin təqdim etdiyi xidmətlərin daha geniş auditoriyaya çatdırılmasını təmin etməklə, marketinq fəaliyyətlərinin səmərəliliyini artırır. Beləliklə, axtarış mexanizminin satışı strategiyaları nəqliyyat şirkətlərinin marketinq fəaliyyətlərinin gücləndirilməsində mühim rol oynayır və müəssisənin bazarda rəqabətqabiliyyətliliyini artıra bilər.

2. Nəqliyyat şirkətləri vebsaytlarını axtarış mexanizminin optimallaşdırılması alətləri ilə optimallaşdırmaqla, sərnişinlər nəqliyyat şirkətlərinin vebsaytlarını daha asan tapa bilərlər. Vebsaytların məzmunu və strukturu optimallaşdırılmalı, əsas açar sözlər və müştəri axtarış tələblərinə uyğun şəkildə tərtib edilməlidir. Axtarış mexanizminin optimallaşdırılması, həmçinin xidmətlərin müştərilər tərəfindən asanlıqla tapılmasına kömək edəcək, nəticədə sərnişin daşımaları sahəsində müştəri cəlbini artıra bilər.

3. Nəqliyyat şirkətləri mobil tətbiqləri axtarış platformasında axtarış mexanizminin optimallaşdırılması və axtarış mexanizminin satışı vasitəsilə, daha geniş auditoriyaya təqdim etməyə üstünlük vermələri məqsədəuyğun hesab edilir. Mobil tətbiqlər sərnişinlərə daha asan xidmət göstərmək, bilet almaq, ödəmə etmək və marşrutlar haqqında məlumat almaq imkanı verə bilər. Axtarış platformasında axtarış mexanizminin optimallaşdırılması ilə tətbiqlərin axtarış motorlarında yüksək mövqelərdə yer alması təmin edilə bilər. Axtarış mexanizminin optimallaşdırılması vasitəsilə isə tətbiqlərin reklamına daha çox resurs ayrılaraq istifadəçi bazası genişləndirilə bilər. Əlavə olaraq da mobil tətbiqlərinin axtarış mexanizminin optimallaşdırılması və axtarış mexanizminin satışı vasitəsilə tədqim edildikdən sonra müəssisənin iqtisadi marağına təsir göstərməklə müəssisənin gəlirini artıra bilər.

4. Rəqəmsal xidmətlər və axtarış platformasında axtarış mexanizminin optimallaşdırılması ilə müştəri cəlbediciliyini artırmaq mühim məsələdir. Çünki nəqliyyat sektorunda rəqəmsal xidmətlərin

genişləndirilməsi, müştəri cəlbini artırmaq məqsədilə axtarış mexanizminin optimallaşdırılması dəstəklənməlidir. Müştərilər üçün istifadəçi platformalar və onlayn ödəniş sistemləri təqdim edildikdə, axtarış mexanizminin optimallaşdırılması vasitəsilə bu xidmətlər daha çox insan tərəfindən tapılacaq və istifadə ediləcəkdir. Buna görə də müştəriləri google axtarış motoruna yönləndirərək, müştəriləri onlayn platformalara yönəldərək, onların xidmətlərdən istifadəsini artıra bilər.

5. Sərnişin daşımalarında intellektual idarəetmə sistemlərinin tətbiqi, marşrut optimallaşdırılması və sərnişin məmnuniyyətinin artırılması üçün vacibdir. Bu sistemlər vasitəsilə real vaxt məlumatları əsasında nəqliyyat vasitələrinin yerləşməsini izləmək və düzgün istiqamətləndirməni təmin etmək mümkündür. İzləmə sistemlərinin tətbiqi ilə, sərnişinlərə daha səmərəli və vaxtında xidmət təqdim edilə bilər.

6. Yük daşımalarında rəqəmsal logistik modellərin tətbiqi ilə yük daşımalarında səmərəliliyi artırmaq üçün xüsusi platformalar inkişaf etdirilməlidir. Bu platformalar vasitəsilə daşıma prosesləri daha çevik və sürətli şəkildə idarə oluna bilər, eyni zamanda müştərilərə xidmətin keyfiyyəti artırıla bilər.

7. İşçilərin təlimlərə cəlb edilmə prosesi tətbiq edilməlidir. Nəqliyyat xidmətində çalışan işçilərin rəqəmsal texnologiyalar üzrə bilik və bacarıqlarının artırılması müəssisənin təşkilati strukturunun gücləndirilməsi baxımından vacibdir. Rəqəmsal alətlərin istifadəsi sahəsində mütəmadi təlimlərin təşkili işçilərin peşəkar inkişafını təmin etməklə yanaşı, təşkilati strukturdakı funksiyaların daha düzgün yerinə yetirilməsinə və idarəetmənin optimallaşdırılmasına xidmət edir. Bu yanaşma, həmçinin müəssisənin fəaliyyət proseslərində rəqəmsal texnologiyaların inteqrasiyasını dəstəkləyərək, ümumi iş səmərəliliyini artıra bilər.

8. Dövlət-özəl tərəfdaşlıqlarının gücləndirilməsi ilə rəqəmsallaşma layihələrinin maliyyələşdirilməsi və tətbiqi sürətləndirilməlidir. Bu əməkdaşlıq dövlətin və özəl sektorun resurslarını birləşdirərək, sektorda innovativ layihələrin həyata keçirilməsinə geniş şərait yarada bilər.

9. Nəqliyyat sektorunda rəqəmsal proseslərin sürətləndirilməsi məqsədilə məlumat idarəetmə sistemlərinin inkişaf etdirilməsi

vacibdir. Bu sistemlər vasitəsilə nəqliyyat xidmətlərinin təhlili gücləndirilərək, resursların daha səmərəli istifadəsi təmin ediləcək və əməliyyatların optimallaşdırılmasına kömək edəcəkdir. Məlumatda idarəetmə sistemlərinin tətbiqi, nəqliyyat şəbəkələrini izləməyə, operativ qərarların verilməsində müasir texnologiyalardan faydalanmağa imkan yarada bilər.

10. Tədqiqat işində rəqəmsal biznes modellərini təklif etmişik. Bu rəqəmsal biznes modelləri nəqliyyat sektorunda yeni yaranan müəssisələrə gəlir əldə etməyin yollarını öyrədən biznes modelidir. Yük daşımaları və logistika şirkətləri daşıma xidmətləri göstərməklə və ya logistik proqram təminatını inkişaf etdirməklə gəlir əldə bilərlər.

11. Tədqiqat işində qeyd etdiyimiz kimi "AYNA"-nın təşkilati strukturunda İT departamenti mövcuddur. Biz "AYNA"-nın təşkilati strukturunda "AYNA"-nın İnformasiyanın Texnologiyası şöbəsinin yeni təşkilati strukturunu irəli sürmüşük. Yeni irəli sürülən təşkilati strukturu tətbiq etməklə, İnformasiya Texnologiyası şöbəsini daha da rəqəmsallaşdıraraq, idarəetmə strukturunda görülən işlərdə işçi qüvvəsinin sayını ixtisar etməklə, dövlət orqanında işin səmərəliyiyini daha da artırmaq olar.

12. Bakıda nəqliyyatda marketinq fəaliyyətində rəqəmsal strategiyanın tətbiqi mexanizmini irəli sürmüşük. Bakıda nəqliyyatda marketinq fəaliyyətində rəqəmsal strategiyaların tətbiq edilməsi nəticəsində rəqəmsal platformaların inkişafı, müştərinin cəlb edilməsi prosesi sürətlənə, marketinq araşdırmaları geniş tətbiq oluna bilər.

Yekun olaraq qeyd edilməlidir ki, Azərbaycanın nəqliyyat sektorunda rəqəmsallaşmanın inkişafı və müasir texnologiyaların tətbiqi, həm iqtisadi həm də sosial sahələrdə müsbət təsirlərini göstərməkdədir. Dissertasiya işində təqdim olunan təhlillər, rəqəmsal xidmətlərin tətbiqi və innovativ idarəetmə sistemlərinin inkişafı sektorun məhsuldarlığını artırmaq və müştəri məmnuniyyətini yüksəltmək baxımından böyük əhəmiyyət kəsb etdiyini ortaya qoymuşdur. Rəqəmsal təhlil axtarış mexanizminin optimallaşdırılması və axtarış mexanizminin satışı kimi strateji alətlərin istifadəsi Azərbaycanın nəqliyyat şirkətlərinin beynəlxalq bazarlarda rəqabət gücünü artırmasına imkan verəcəkdir.

Bunların həyata keçirilməsi üçün dövlət və özəl sektor arasında

daha sıx əməkdaşlıq qurmaqla beynəlxalq təcrübələrdən faydalanmaq vacibdir. Yalnız müasir texnologiyaların tətbiqi deyil, eyni zamanda işçi qüvvəsinin rəqəmsal bacarıqlarının artırılması da sektorda səmərəli və dayanıqlı inkişafı təmin edə bilər. Nəqliyyat xidmətlərinin optimallaşdırılması, müştəri cəlbini artırmaq və innovativ layihələrin həyata keçirilməsi ilə Azərbaycan, regional və beynəlxalq bazarlarda daha güclü mövqe tutmağı hədəfləyir. Beləliklə, rəqəmsallaşma və texnoloji yeniliklər nəqliyyat sektorunun inkişafına yeni imkanlar yarada və Azərbaycanın iqtisadiyyatına müsbət təsir göstərə bilər.

**Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin aşağıdakı məqalə və tezisləri dərc edilmişdir:**

1. Azərbaycanda hava nəqliyyatının inkişaf istiqamətləri // – Moskva: Экономика и менеджмент, 2022, №-4. – s. 102-109.

2. Azərbaycan Respublikasında nəqliyyat və logistik xidmətlərdə rəqəmsal biznes modellərinin inkişaf istiqamətləri // – Bakı: "Audit" jurnalı, 2022, №-3. – s. 66-74.

3. Beynəlxalq nəqliyyat daşımalarında rəqəmsallaşmanın xarici təcrübəsinin öyrənilməsi // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnalı, 2022, № 4 (67). – s. 137-143.

4. İşğaldan azad olunmuş ərazilərdə nəqliyyat sektorunda rəqəmsallaşmanın inkişaf istiqamətləri // – Gəncə: "Elmi əsərlər jurnalı", 2022, №-3. – s. 90-95.

5. "Dəmir yolları QSC"-də yükdaşımanın elektronlaşdırılmasının mövcud vəziyyətinin təhlili // – Gəncə: "İnnovasiyalı iqtisadiyyat və menecment jurnalı", 2022, №-3. – s. 107-113.

6. Rəqəmsal nəqliyyat xidmətinin inkişafında süni intellektin tətbiqi məsələləri // – Bakı: "Audit" jurnalı, 2024. – s. 83-91.

7. Azərbaycan Respublikasında taksi xidmətlərinin innovativ xüsusiyyətləri və onun metodoloji əsasları // – Bakı: Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Keyfiyyət təminatı rəqabətqabiliyyətli iqtisadi inkişafın əsas amili kimi" konfrans materialı, 2022. – s. 427-429.

8. Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişaf mərhələləri // – Bakı: Elmi araşdırmalar mərkəzi, konfrans materialı, 2021 1-ci cild, №-4. – s. 9-11.

9. Nəqliyyatda rəqəmsallaşmanın elmi nəzəri əsasları // – Gəncə: Azərbaycan Texnologiya Universiteti, konfrans materialı, 2022. 1-ci hissə. – s. 79-80.

10. Digital transport corridor and its nature. // – Türkiyə: International Anatolian Scientific Research Congress International Anatolian Scientific Research Congress, 2022 october 25. – s.102-104

11. İmproving the digitization of transport movement a charts: a research on Azerbaijan railways. // – Türkiyə: International Anatolian Scientific Research Congress International Anatolian Scientific Research Congress, 2022 october 25. – s. 104-106

12. İmplementation of automatic management systems in digital transport service in Azerbaijan. // – Bakı: İnternational Baku Scientific Research Congress, 2022 november 30 december 01, №-4, – s. 15-25.

13. Nəqliyyat sektorunda ekoloji təmiz texnologiyaların tətbiqi. // – Bakı: Yaşıl dünya naminə həmrəylik ilinə həsr olunmuş dayanıqlı ətraf mühit: Yaşıl enerjiyə keçid adlı konfrans materialı, 2024, 6 dekabr. – s. 451-454.

14. Improving digitization in freight and passenger transport in the transport sector. // – Bakı: Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş “Yaşıl iqtisadiyyat davamlı inkişafın modeli kimi” konfrans materialı. 2024, 24 aprel. – s. 330-331.

15. Modern marketing strategies in transport service development. // – Xarkov, Ukrayna: Организационные и учетно-финансовые механизмы управления экономической безопасностью предприятия adlı konfrans materialı. 2025. – s. 237-239.

Dissertasiyanın müdafiəsi 23 aprel 2025-ci il saat $16^{00}$-da Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə Dissertasiya şurasının iclasında keçiriləçək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 18 mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.03.2025

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 47691 işarə

Tiraj: 100